**UOT: 343.3/7** **DOI: 10.34826/NAA.2023.25.2.009**

# NARKOTİZMLƏ VƏ NARKOBİZNESLƏ CİNAYƏT-HÜQUQİ MÜBARİZƏNİN AKTUAL PROBLEMLƏRİ

***Hacı-zadə İ.E.***
***Milli Aviasiya Akademiyası***

*Məqalə narkotizmlə mübarizənin aktual problemlərinə həsr olunub. Məqalədə qeyd olunub ki, narkomaniya ilə mübarizədə mövcud problemləri həll etmək üçün respublikamızda ciddi işlər görülməli, alimlər və mütəxəssislər tərəfindən dəyərli təkliflər verilməlidir.*

*Məqalədə xüsusilə qeyd edilir ki, narkotizmlə mübarizədə respublikamız bütün konsepsiyalara qoşulur. Bundan başqa, respublikamızda narkomaniya ilə mübarizə mühüm dövlət işi kimi qiymətləndirilmiş, ona dövlət siyasəti statusu verilmiş və onun əsas istiqamətləri, strategiyası və konkret iştirakçıları müəyyənləşdirilmişdir.*

***Açar sözlər:*** *Narkotik, narkobiznes, cinayətkarlıq, narkotik tərkibli bitki, bihuşedici, uyuşdurucu, məstedici, psixotrop maddələr.*

Cəmiyyətdə ictimai qüsurlardan biri narkomaniyadır. Narkomaniya iki “narkos” (donma, bihuşluq) və “maniya” (həvəs, ehtiras) yunan sözlərinin - birləşməsindən yaranmışdır.

Bəşəriyyətin “sehrli qüvvəsi” hesab edilən narkotizm son illər dünya miqyasında geniş yayılmışdır. Narkotik vasitələrdən və psixotrop maddələrdən məstedici, bihuşedici, uyuşdurucu və sakitləşdirici vasitə kimi yüz illərlə istifadə olunub.

**İşin məqsədi:** Günümüzün bəlasına çevrilmiş narkotizmlə və narkobizneslə cinayət-hüquqi mübarizənin mövcud problemləri araşdırılır. Narkotizmlə mübarizə üçün əsas məqsəd həm ailədə, həm təhsil müəssisələrində, həm də iş yerlərində fəal maarifləndirilmə işləri aparılmalı, qabaqlayıcı tədbirlər görülməlidir.

L.H. Romanov yazır ki, “narkotizm” termini altında adətən cəmiyyətdə insanların və qrupların həyat və münasibətləri ilə əlaqədar “ictimai” anlayış başa düşülür. “Narkotizm” termini altında - həkimin təyin etmədiyi halda qəsdən narkotik maddə qəbul etmək, bu maddələrlə qanunsuz əməliyyatlar həyata keçirmək, başqa şəxsləri qeyri-tibbi məqsədlə narkotiklərə sövq etmək, həmin maddələrin qanunsuz dövriyyəyə buraxılmasına şərait yaratmaqla bağlı cəmiyyətə zidd hərəkətlər məcmusu kimi sosial qəbildən olan hadisələr anlaşılır [1, səh. 43]. Ali qanunumuz olan Azərbaycan Respublikası Konstitusiyasının 41-ci maddəsi əhalinin sağlamlığının qorunmasına həsr olunub [2, səh. 15]. Bütün dünyada “ağ ölüm” adını almış narkomaniya bütün cəmiyyət üçün sosial bəladır və onunla mübarizə aparmaq milliyyətindən asılı olmayaraq bütün dünya xalqlarının ən mühüm vəzifələrindən biri hesab olunur.

Etiraf etmək lazımdır ki, son illərdə narkomaniya respublikamızda geniş yayılmışdır. Statistik göstəricilərə görə respublikamıza 2022-ci ildə gətirilən narkotik maddələrin 95%-i İran İslam Respublikasından qaçaqmalçılıq yolu ilə gətirilmişdir.

Son illər Azərbaycan Respublikasında cinayətkarlıqla mübarizənin nəticələri nə qədər uğurlu olsa da, narkotiklərin qanunsuz dövriyyəsi və narkomaniya ilə bağlı problemlər qalmaqdadır və cəmiyyətdə xeyli mürəkkəb vəziyyət yaratmaqda davam edir. Məhz, buna görə də respublikamızda narkomaniyaya qarşı mübarizədə dövlətin cinayət-hüquqi siyasəti olduqca sərtdir və AR Cinayət Məcəlləsinin müvafiq maddələrində maksimum sanksiya kimi 15 ilədək azadlıqdan məhrumetmə nəzərdə tutulmuşdur. Təcrübə göstərir ki, istintaq orqanları, həm də məhkəmələr narkotiklərlə bağlı cinayətlərə qarşı eyni dərəcədə barışmazdır, belə cinayət törədənlər azadlıqdan məhrumolma cəzasından yaxa qurtara bilmirlər [3, səh. 17].

Narkotizmə qarşı mübarizə məsələsi respublikamızda aktual bir problem olaraq qalmaqda davam edir.

Görkəmli alim Ç.F. Mustafayev cinayətkarlığa qarşı mübarizədə göstərir ki, cinayətlərin qarşısını almaq üçün valideynlərin övladı və cəmiyyət qarşısında məsuliyyətini artırmaq məqsədilə

hər bir təhsil ocağının nəzdində fəaliyyət göstərən valideyn birliklərinin yaradılması məqsədəuyğun olardı. Bu birliklər təhsil ocağında və ailədə tərbiyə, təhsil prosesini və başqa bu kimi vacib məsələləri daim diqqət mərkəzində saxlamalıdır. Şübhə yoxdur ki, bu tədbirlər sistemi insanlarda övlad və cəmiyyət qarşısında məsuliyyəti artırır və cəmiyyətin bu qəbildən olan problemlərinə münasibətdə onların biganəliyinə son qoyar.

Narkomaniya ilə mübarizədə mövcud problemləri həll etmək üçün respublikamızda ciddi işlər görülməli, alimlər və mütəxəssislər tərəfindən dəyərli təkliflər verilməlidir. Ç.F. Mustafayev yazır: cəmiyyət üçün ağıllı məsələlərdən biri də uşaq evlərində tərbiyə alan insanların bir müddət keçdikdən sonra diqqətdən kənarda qalmamalarına çalışmaqdır. Müəyyən yaş həddinə çatdıqdan sonra həmin gənclərdən demək olar ki, bütün əlaqələr kəsilir. Həmin gənclərə qarşı cəmiyyət tərəfindən nümayiş etdirilən laqeydlik onlarda pozitiv keyfiyyətlərin neqativ keyfiyyətlərlə əvəzlənməsinə şərait yaradır. Hesab edirik ki, gənclər daim dövlət qurumlarının, sahibkarların diqqət mərkəzində olmalıdırlar. Bu kateqoriyaya aid gənclərin savadlı hissəsinin təhsillərini davam etdirmələri və sonradan işlə təmin olunmaları, savadı aşağı olan hissəsinin isə ayrı-ayrı sənət növlərini öyrənmək işinə cəlb olunmaları üçün şərait yaradılmalıdır. Bir sözlə, onların taleyi öz başına buraxılmamalıdır. Bu insanları diqqətdən kənarda qoymaqla cəmiyyət pis vərdiş və davranışa meyilli subyektlərin formalaşmasına şərait yaratmış olur [4, səh. 23].

Azərbaycan Respublikası Müstəqillik əldə etdikdən sonra narkomaniya ilə mübarizədə fəal iştirak edir. Narkomaniya ilə mübarizədə “802” Çağırış Məlumat Mərkəzi mühüm əhəmiyyət kəsb edir. Narkotiklərlə mübarizədə 1 dekabr 1998-ci il tarixli “Narkotik vasitələr və psixotrop maddələrə dair” BMT Konvensiyası mühüm rol oynayır [5]. Azərbaycan Respublikası müstəqilliyə çıxdıqdan sonra BMT-nin “Narkotik vasitələr haqqında” 1961-ci il Vahid Konvensiyasına və “Psixotrop maddələr” haqqında 1971-ci il tarixli Konvensiyasına qoşulmuşdur.

Avropa, Asiya və Şimali Amerikanın 13 dövlətinin səyləri nəticəsində 1909-cu ildə Çinin Şanxay şəhərində ilk Beynəlxalq Konfrans keçirilmişdir. Bu Beynəlxalq Konfransda narkomanlıqla mübarizə problemləri araşdırılmışdır.

Narkotiklərlə mübarizədə ən aktual problemlərdən biri də onların qaçaqmalçılıq yolu ilə daşınmasıdır. “Narkotik vasitələrin və psixotrop maddələrin daşınması” onların bir yerdən başqa yerə hər hansı bir nəqliyyat növü ilə yerlə, hava və ya su yolu ilə aparılması deməkdir. Narkotik vasitələrin və psixotrop maddələrin daşınması anlayışını onların şəxsin üstündə gəzdirilməsi ilə də qarışdırmaq olmaz [6, səh. 39].

Narkotizm islam dini ilə qadağandır və belə əməllər şəriət qaydaları ilə günah hesab olunur.

«Quran»ın təfsiri ilə məşğul olan alimlərin əksəriyyəti də hesab edirlər ki, islam dini narkotik vasitələrdən istifadəni qadağan edir. Məlumdur ki, şəriət hər bir müsəlmandan dinin, əqlin, nəfsin və maddinin mühafizəsini tələb edir. Alkoqollu içkilər də, narkotik maddələr də insanın ağlını başdan çıxarır. Ağlı başdan çıxan insanda isə din də, əqil də başdan çıxır. Ona görə də Peyğəmbər Əleyhüssəlam demişdir: “İnsanı insan edən ağıldır, ağlı olmayanın dini də yoxdur” [7, səh. 35].

B.S. Zahidov göstərir ki, narkotik vasitələr haqqında Konvensiyalara qoşulmaq, onların şərtlərinə tərəfdar çıxmaq, habelə zəruri düzəlişləri qəbul etmək hələ narkobiznesla mübarizə probleminin səmərəli həlli, yaxud narkobiznesin mövcud durumunun real mənzərəsinin tam təsviri demək deyildir. Fikrimizcə, bu istiqamətdə ən mühüm cəhətlərdən biri Beynəlxalq Konvensiyalara və onların əsas müddəalarına əməl edilməsindən, hər bir iştirakçı dövlətin öz üzərinə götürdüyü beynəlxalq öhdəlik şərtlərini yerinə yetirməsindən ibarətdir [8, səh. 152].

Xüsusilə qeyd etmək lazımdır ki, keçmiş SSRİ dövlətlərində narkotizmlə mübarizədə cinayət qanunvericiliyinin inkişafı ilə bağlı olaraq narkotik vasitələrin qanunsuz dövriyyəsinə aid bir çox beynəlxalq sənədlər də qəbul edilmişdir. Bunlara misal olaraq aşağıdakıları göstərmək olar:

-“Narkotik vasitələrin istehsalının məhdudlaşdırılması və bölgüsünün reqlamentləşdirilməsi haqqında” 1931-ci il Cenevrə Konvensiyası;

-“Zərərli dərman maddələrinin qanunsuz dövriyyəsi ilə mübarizə”yə dair 1936-cı il Konvensiyası;

-sazişlərə, konvensiyalara dəyişikliklər edilməsi haqqında Protokol və narkotik vasitələr haqqında Protokollar, 1946-cı il;

-1931-ci il Konvensiyasının qüvvəsi altına düşməyən "Dərman maddələri üzərində beynəlxalq nəzarət" haqqında 1948-ci il Paris Protokolu.

Azərbaycan Respublikasında narkotizmlə mübarizədə əsasən iki istiqamət mövcuddur.

Birincisi, "inzibati xəta" dərəcəsi adlanan, zərərin az olması nəzərə alınmaqla nəticələrin az təhlükəli və az ağır olmasından asılı olaraq ayrı-ayrı pozuntuların kriminallaşdırılması. İkincisi, öz hüquqazidd fəaliyyətini inzibati sanksiyaların tətbiq edilməsinə baxmayaraq, inadkarlıqla davam etdirən şəxslərə münasibətdə reqressiv cinayət-hüquqi tədbirlərin gücləndirilməsi.

Respublikamızda onun müstəqilliyini təhlükə altına alan və cinayətkarlığın inkişafında mühüm rol oynayan narkotizmlə, həmçinin onun təhlükəli növlərindən olan narkobizneslə mübarizəyə xüsusi diqqət yetirilmiş, onunla mübarizənin əsas strategiyası mərkəzləşdirilmişdir. Bu sahədə əsas sənəd Respublikanın sabiq Prezidenti H. Əliyevin "Narkomaniya ilə mübarizənin gücləndirilməsi tədbirləri haqqında" 7 oktyabr 1992-ci il tarixli 253 saylı Fərmanı olmuşdur. Narkomaniya ilə mübarizəni mühüm dövlət işi kimi qiymətləndirən bu Fərman narkomaniya ilə mübarizənin əsas istiqamətlərini və strategiyasını müəyyən etmişdir.

BMT üzvü olduqdan sonra Azərbaycan Respublikası narkomaniya ilə mübarizə sahəsində bir çox Konvensiyalara qoşulmuşdur. O cümlədən, 1992-ci ildə "Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında" BMT-nin 1988-ci il tarixli Konvensiyasına qoşulmuşdur. "Azərbaycan Respublikasında narkomanlığa qarşı mübarizədə Ümummilli Proqram" AR Nazirlər Kabinetinin 14 aprel 1993-cü il tarixli 198 №li Qərarı ilə təsdiq olunmuşdur. Ümummilli Proqrama uyğun olaraq narkotizmlə mübarizə istiqamətində onların işini əlaqələndirən "Narkomaniya və narkobiznesə qarşı mübarizə üzrə idarələrarası komissiya yaradıldı və həmin komissiya haqqında Əsasnamə təsdiq edildi".

Narkotik cinayətkarlığa qarşı mübarizə sahəsində aşağıdakı təklifləri vermək olar:

-əmək haqqı verilməklə narkotiklərin ən geniş yayıldığı ərazilərdə məhəllə komitələri yaratmalı və həmin komitəyə ən nüfuzlu şəxsləri rəhbər təyin etmək;

-həm rəsmi dövlət televiziyasında, həm də özəl televiziyalarda hər gün müəyyən edilmiş saatlarda narkomaniya ilə mübarizəyə həsr olunmuş maarifləndirmə verilişlərinin təşkili;

-narkomaniya ilə mübarizə sahəsində dövrün tələbinə uyğun elmi- tədqiqat əsərlərinin yazılması üçün görkəmli alimləri, mütəxəssisləri cəlb etmək;

-dünya ölkələri ilə narkotik cinayətkarlıqla mübarizə sahəsində beynəlxalq əlaqələri daha da yüksəltmək;

-narkotizmlə bağlı cinayətkarlığın qarşısını almaq məqsədi ilə sosioloji sorğular keçirməli və bunun nəticəsində uyğun tədbirlər görməli;

-hüquq mühafizə orqanları narkomaniya ilə bağlı profilaktik tədbirləri cinayət hadisəsi baş verdikdən sonra deyil, əvvəlcədən həyata keçirməlidir ki, belə cinayət əməli baş verməsin;

-son illər dünya miqyasında olduğu kimi respublikamızda da narkotizm cinayətkarlığının artım tendensiyasını nəzərə alaraq, narkomaniya sahəsində ən cox tətbiq olunan AR CM-in 234-cü maddəsinin sanksiyasını daha da sərtləşdirmək.

Beləliklə, narkotizmlə mübarizədə belə nəticəyə gəlmək olar ki, narkotizmin cəmiyyətdəki təzahürləri coxşahəli olub, müxtəlif məzmunda və formalarda özünü büruzə verir. Bu isə, təbii olaraq problemə birmənalı yanaşma metodunu mürəkkəbləşdirir ki, nəticədə hər bir təzahür formasına xüsusi metodların tətbiqi zərurəti yaranır. Göründüyü kimi, narkotizmin və narkotik cinayətlərin təzahürləri çoxdur. Onların qarşısını almaq üçün əlaqədar orqanlar birgə fəaliyyətlərini cəmiyyətin tələbinə uyğun şəkildə onunla vəhdətdə qurmalıdır. Problemə həmin mövqedən yanaşmaq məqsədəuyğundur.

## ƏDƏBİYYAT

1. Романова Л.Н. Наркотики и преступность. Владивосток, 1998, с. 43.
2. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, Qanun, 2022
3. S.Ş. Şərifov. Narkotizmin təzahürləri və onlara qarşı mübarizənin zəruriliyi. Bakı, Elmi məcmuələr. MAA, cild 18, №3, səh. 117.

4. Ç.F. Mustafayev. Cinayətkarlığa qarşı mübarizə sisteminin təkmilləşdirilməsi məsələləri. Bakı, Qanun 03 (215), 2012, səh. 21-23.
5. "Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında" 1998-ci il tarixli Konvensiya.
6. Qasımov S.Y. Narkotiklərin qanunsuz daşınması əməlləri üzrə cinayət təqibi. Bakı, 2013, səh. 64.
7. Canan İ. Kütüb-i Sitte Muhtasari, Aksağ bas. Ankara 8-ci cilt, səh. 159. Qurani-Kərim. Məhərrəm 1418/1997, səh. 35.
8. Zahidov B.S. Narkotizm və narkobizneslə mübarizənin aktual problemləri. Bakı, BDU nəş., 2004, səh. 152,184.

## REFERENCES

1. Romanova L.N. Narkotiki i prestupnost'. Vladivostok, 1998, s. 43.
2. Azerbayjan Respublikasinin Konstitusiyasi. Baki, Ganun, 2022.
3. S.S. Sherifov. Narkotizmin tezahurleri ve onlara qarshi mubarizenin zeruriliyi. Baki, Elmi mecmueler. MAA, jild 18, №3, seh. 117.
4. C.F. Mustafayev. Jinayetkarlıgha garshı mubarize sisteminin tekmilleshdirilmesi meseleleri. Baki, Ganun 03 (215), 2012, seh. 21-23.
5. "Narkotik vasitelerin ve psixotrop maddelerin ganunsuz dovriyyesine garshi mubarize hagginda" 1998-ci il tarikhli Konvensiya.
6. S.Y. Gasimov. Narkotiklerin ganunsuz dashınmasi emelleri uzre jinayet tegibi. Baki, 2013, seh. 64.
7. Janan İ. Kutub-i Sitte Muhtasari, Aksag bas. Ankara 8-ji jilt, s. 159. Gurani-Kerim. Meherrem 1418/1997, seh. 35.
8. Zahidov B.S. Narkotizm ve narkobiznesle mubarizenin aktual problemleri. Baki, BDU nesh., 2004, seh. 152, 184.

## *CRİMİNAL-LEGAL FİGHT AGAİNST NARCOTICS AND DRUG BUSINESS CURRENT PROBLEMS*

***Haji-zade I.E.***
***National Aviation Academy***

*The article is dedicated to the current problems in the field of combatting drugs. It is mentioned that there are important tasks within the framework of measures to combat drug abuse and valuable suggestions should be put forward by scientists and specialists in solving this global problem in our Republic.*

*In this article, it is especially emphasized that our Republic has joined to the all International Drug Enforcement Conventions. It is also underlined that the fight against drug addiction had been assessed as an important state issue, it was granted the state status, and its main directions, strategies and real participants were determined.*

***Keywords:*** *Drug, drug business, narcotic medicinal plant, beeswax, narcotic intoxicant, psychotropic substances.*

***Rəyçi: h.f.d. Kərimov Ş.M.***

***Müəllif haqqında məlumat***

| Soyadı, adı, atasının adı | İş yeri | Vəzifəsi, elmi dərəcəsi, elmi adı | Əlaqə |
|---|---|---|---|
| Hacı-zadə İlham Etibar oğlu | Az. Sənaye sıgorta ASC, hüquqşünas | MAA-nın Hüquq kafedrasının magistri | ilham.hacizade@inbox.ru mob. (+994) 51 588 27 38 |